# Azərbaycan çoxtərəfli əməkdaşlığa və dialoqa mühüm önəm verir

Təəssüf ki, müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edənlərin heç biri bu prinsiplərin əhəmiyyətini dərk eləmək iqtidarında deyildi, ona görə də Türkiyə istisna olmaqla digər qonşularımızı Azərbaycanın düşməni elan etmişdi. Siyasi fəaliyyətə "Heç bir ölkə beynəlxalq əməkdaşlıq olmadan inkişaf edə bilməz" tezisi ilə başlayan ulu öndər Heydər Əliyev isə qısa müddətdə bütün ölkələrlə qarşılıqlı faydalı olan, Azərbaycanın milli mənafeyinə və dövlətçilik maraqlarına uyğun əməkdaşlıq platformaları yaradılmasına nail oldu. Ölkəmizin Müstəqil Dövlətlər Birliyinə üzv olması da ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra atdığı mühüm addımlardan idi.



*Azərbaycan ənənəvi olaraq MDB-nin işində iştirak etməyə çox böyük əhəmiyyət verir, bu təşkilatın fəal üzvüdür... Bu məkan bizə müntəzəm surətdə fikir mübadiləsi aparmaq imkanı verir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Ulu öndər Heydər Əliyev ölkəmizin xarici siyasətini elə işləyib hazırlamışdır ki, bu, həm ikitərəfi əməkdaşlığın genişləndirilməsini, həm də mühüm beynəlxalq təşkilatlar çərçivəsində reallaşdırılan çoxtərəfli əməkdaşlığı təmin edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə son 18 ildə bu istiqamətlərə üçtərəfli və dördtərəfli əməkdaşlıq formatları da əlavə edilmişdir.***

***Ulu öndərin əsas tezislərindən biri bu idi ki, coğrafi və mənəvi baxımdan bizə yaxın olan türkdilli dövlətlərlə, İslam ölkələri ilə və nəhayət, mütərəqqi siyasi kursu olan bütün ölkələrlə dostluq və əməkdaşlıq əlaqələri qurulmalıdır.***

Prezident İlham Əliyevin dəfələrlə dediyi kimi, Azərbaycanın MDB-dəki fəaliyyəti milli maraqlarımıza uyğundur. Fəxrlə deyə bilərik ki, dövlət başçımızın təşəbbüsü ilə yaradılmış Azərbaycan – Rusiya Federasiyası – Türkiyə Cümhuriyyəti, Azərbaycan – Rusiya Federasiyası – İran İslam Respublikası, eləcə də, Azərbaycan – Türkiyə – Gürcüstan üçtərəfli formatda qurulan əməkdaşlıq və tərəfdaşlıq münasibətləri təkcə ölkəmizin deyil, həm də bütövlükdə regionun inkişafına özünəməxsus töhfələr verir.

Ancaq bütün bunlarla yanaşı, ən çox əməkdaşlıq etdiyimiz regional format məhz Müstəqil Dövlətlər Birliyidir. İlham Əliyevin son illər Rusiya Federasiyası və Belarusa tez-tez səfərlər etməsi, Qazaxıstan və Orta Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verməsi də MDB daxilindəki əməkdaşlığımızın davamı kimi qiymətləndirilir. Dövlət başçımızın bu səfərləri, aparılan müzakirələr və imzalanan sənədlər təkcə regionda deyil, eləcə də, Qafqazda marağı olan bütün ölkələrdə diqqətlə izlənilir. Bu da səbəbsiz deyildi. Çünki ərazilərinin 20 faizi işğal altında olan Azərbaycan öz ordusunu həm də Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, İsrail, Belarus və Ukrayna istehsalı olan silahlarla təchiz edirdi. Ekspertlər yazırlar ki, dövlət başçımızın MDB məkanına səfərləri çərçivəsində də bu hərbi əməkdaşlığa dair danışıqlar aparılıb.

Daha bir mühüm fakta diqqət yetirək. Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının 2018-ci ilin noyabrında Astanada keçirilən növbəti sammitində ölkəmizə MDB-də nə qədər önəm verildiyinin şahidi olduq. Həmin sammitdə Qazaxıstan və Belarus prezidentləri bədnam qonşumuz olan işğalçı Ermənistanı, sözün həqiqi mənasında, cəzalandırmışdılar. KTMT-nin baş katibi vəzifəsini yerinə yetirən erməni general Yuri Xaçaturovun cinayət məsuliyyətinə cəlb edildiyinə görə vəzifədən kənarlaşdırılmasından sonra Ermənistan rəhbərliyinin oraya daha bir erməni zabitini sırımaq cəhdinin qarşısının alınması və KTMT-də MDB üzvü olan digər dövlətə – yəni Azərbaycana müşahidəçi qismində iştirak etmək statusu verilməsi barədə təklifin səslənməsi rəsmi Yerevana sarsıdıcı zərbə idi. Bu zərbəni Azərbaycan yox, MDB çərçivəsində sıx və fəal əməkdaşlıq etdiyimiz Qazaxıstan və Belarus vurmuşdular.

O zaman ekspertlər yazırdılar ki, Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatının ali orqanı olan KTŞ-nin qərarı ilə Ermənistanın nümayəndəsi olan Yuri Xaçaturov qurumun baş katibi vəzifəsindən vaxtından əvvəl azad edilmişdi: "Bu məsələdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin prinsipial mövqeyi xüsusilə alqışa layiqdir. Belə ki, sammitə ev sahibliyi edən Qazaxıstanın dövlət başçısı baş katib məsələsində müəyyən qeyri-müəyyənliyin baş verdiyini qeyd etdi. O, rus dili üzrə əlifba ardıcıllığına görə Ermənistandan sonra növbəti baş katibin Belarusdan olmalı olduğunu bildirdi. Nəticə etibarilə, Ermənistan üzv olduğu KTMT çərçivəsində də özünü tamamilə təcrid olunmuş vəziyyətə salmışdır". Bu qərarların düşmən dövlətə vurduğu zərbələrin nəticəsi isə hamıya məlumdur.

Fikrimcə, bütün bunlar ulu öndər Heydər Əliyevin Müstəqil Dövlətlər Birliyinə qoşulmaq barədə qəbul etdiyi qərarın və Prezident İlham Əliyevin bu regional beynəlxalq təşkilatdakı fəaliyyətimizə önəm verməsinin nə qədər əsaslı olduğunun növbəti sübutudur.

Xatırladaq ki, 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna, Belorusiya (o zaman ölkənin adı belə idi – red.) tərəfindən qurulmuş MDB SSRİ-nin "mədəni dağılmasını"nı təmin etmək, onun mülklərini keçmiş İttifaq ölkələri arasında paylaşdırmaq üçün təşkil edilmişdi. Həmin il dekabrın 21-də Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Moldova , Tacikistan, Türkmənistan və Ermənistan da bu quruma qoşulmaq barədə razılığa gəlmişdilər. Müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edən siyasət naşıları bu qurumun SSRİ-nin bərpası üçün yaradıldığını güman edərək, ondan kənar dayanmağı vacib saymışdılar. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra isə xalqa və deputatlara izah edildi ki, MDB ilə SSRİ tamamilə başqa-başqa qurumlardır. Beləliklə, Azərbaycan 1993-cü ilin sentyabrından MDB-nin tamhüquqlu üzvü oldu. Xatırladaq ki, Türkmənistan 2005-ci ildən MDB-də müşahidəçi kimi fəaliyyət göstərir. 2014-cü ildən sonra isə Ukrayna MDB-dən çıxıb.

Bu qurum 280 milyondan çox əhalini əhatə edir. Nizamnaməsində insan hüquq və azadlıqlarının təmin olunması, xarici siyasət fəaliyyətinin əlaqələndirilməsi, ümumi iqtisadi məkanın formalaşdırılması, nəqliyyat və rabitə sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, əhalinin sağlamlığının və ətraf mühitin qorunması, sosial və immiqrasiya siyasəti məsələləri, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, müdafiə siyasətində və xarici sərhədlərin mühafizəsində əməkdaşlıq məsələləri vardır.

MDB-nin strukturuna qurumun nizamnamə orqanları daxildir. Bu, Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Müdafiə Nazirləri Şurası, Sərhəd Qoşunları Komandanları Şurası, Parlamentlərarası Assambleya, İqtisadi Məhkəmədən ibarətdir. Eləcə də MDB-nin İqtisadi Şura və İcraçı Komitə adlı icraçı orqanları da vardır.

MDB orqanlarına sədrlik, 1999-cu ildən etibarən hər üzv dövlət tərəfindən növbə ilə həyata keçirilir (maksimum 1 il müddətinə). Sədrdən əvvəlki sədr və sonrakı sədr onun müavinləri qismində çıxış edirlər. MDB-nin işçi dili rus dilidir.

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu digər təşkilatlara üzv olmuşdur. Prezident İlham Əliyev 2017-ci il oktyabrın 17-də Rusiyanın Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında çıxışı zamanı deyib ki, Azərbaycan ənənəvi olaraq, MDB-nin işində iştirak etməyə çox böyük əhəmiyyət verir, bu təşkilatın fəal üzvüdür və əmindir ki, MDB-nin böyük gələcəyi var: "Bu məkan bizə müntəzəm surətdə fikir mübadiləsi aparmaq imkanı verir".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***